

# Taleyin qisməti

*"Mənim sevgim taleyimi izləməyib, taleyim sevgimin ardınca gedib" deyən, maraqla oxunan, sevilən və tanınan şair Musa Yaqubun 70 illik yubileyi bu gen dünyaya göz açdığı doğma Buynuz kəndində qeyd olundu. Qələm yoldaşlarının, dost-tanışların, qohum-qardaşın, bir sözlə, Musa Yaqubu sevənlərin iştirak etdikləri yubiley tədbirlərində hər səhifəsi bir ədəbiyyat tarixi olan ömür kitabı vərəq-vərəq çevrildi, sətir-sətir oxundu...*

Musa Yaqub 1937-ci ildə ulu diyarımızın əsrarəngiz gözəllikləri ilə seçilən İsmayıllı rayonunun Buynuz kəndində, sənətkar ailəsində dünyaya göz açmışdır. Valideynləri rayonun ən qədim, ancaq çox təəssüf ki, çox-çox illər öncəsindən bir ünvan kimi xəritədən silinmiş Zanqı kəndindən buraya köç etmişlər. Bir ömür boyu da doğma yurdun həsrəti ilə yaşamışlar. Və bu həsrət atanın söylədiyi xalq dastanlarına, ananın axşam-səhər çağırdığı bayatılara yamanca hopmuşdu. Beləcə, Musa Yaqub şair ruhlu valideynlərinin təsiri altında böyük şair ömrünə gedən kiçik cığıra qədəm qoyur. Özünün xəböyük şair ömrünə gedən... Özünün xatırladığına görə, Sabir adlı həmyaşıdının məktəb uşaqlarını başına yığıb tez-tez şeir oxuması bir gün sanki onun yatmış duyğularını oyadır. "Və o gündən başladım Koroğlunun qoçaqlığını, Qıratın tərifini yenidən özüm bildiyim kimi nəzmə çəkməyə". Ancaq o zaman nə sinif yoldaşları, nə müəllimləri, nə valideynləri güman etməzdilər ki, bu "cızma-qaralar" zəmanəsinin böyük şairi olacaq bir insanın ilk qələm məhsullarıdır.

1955-ci ildə orta məktəbi bitirib Göyçay Pedaqoji texnikumuna daxil olan Musa müxtəlif mövzularda şeirlər yazır. Ədəbiyyat müəllimi İlyas Sədiyev onun poeziyaya olan marağını və ən əsası özünə inamını daha da artırır. Elə bu inamla da Göyçayda çıxan "Qalibiyyət bayrağı" qəzetinin qapısını açır. Beləcə, gənc şair ilk olaraq bu qəzet vasitəsilə oxucularına öz sözünü deyir. Doğma kəndində müəllim işlədiyi dövrdə də o bədii yaradıcılıqla müntəzəm məşğul olur. 1959-cu ildə şair ilk poeması olan "İki qəlb, iki dünya"nı qələmə alır.

1961-ci ildə BDU-nun filologiya fakültəsinə daxil olan Musa Yaqubun qarşısında daha geniş yaradıcılıq üfüqləri açılır. "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Sovet kəndi", "Kommunist" qəzetlərində, "Azərbaycan" jurnalında şeirləri çap olunur. 1966-cı ildə şairin "Yarpaqlar oxuyur" adlı ilk kitabı çapdan çıxır. Ayağı sayalı olan bu kitab böyük maraqla qarşılanır. Şeirlərində Azərbaycan təbiətinin poetik lövhəsini yaratmış Musa Yaqubun bu kitabı haqqında yazıçı İmran Qasımov belə demişdir: "Onun şeirlərində təbiət adi təsvir xatirinə deyil, bədii vasitə kimi götürülür. Ona görə də şeirləri bitkin təsir bağışlayır".

Şairin bütün şeirlərinə vətənə, torpağa, elə böyük bağlılıq hakimdir.

*Yarpaqlar bir cürə danışır-dinir,*
*Gəzsən bu dünyanın hər diyarını*
*Bizim yarpaqlara fikir verin bir*
*Oxuyur əzəli mahnılarını.*





Universiteti bitirdikdən sonra şair yenə bir müddət doğulduğu kənddə müəllim işləyir. Və başqa bir xeyirxah işlə də məşğul olur. Rayonda çıxan "Zəhmətkeş" qəzetinin nəzdində "Dağ çiçəkləri" adlı ədəbi məclis yaradaraq rayonun şeirə, sənətə həvəskar gənclərini bir araya yığır, onlardan dəyərli məsləhətlərini, faydalı söhbətlərini əsirgəmir. Bu gün məclisin üzvü olmuş onlarla gənc artıq bir neçə şeirlər kitabının müəllifidir. Maarif Soltan isə ustadına layiq bir şairdir.

1970-ci ildə Musa Yaqub Azərbaycan Yazıçılar Birliyinə üzv seçilir. Həmin il "Bu məhəbbət yaşadır məni", üç il sonra isə "Mənim kainatım" kitabları çapdan çıxır. Artıq təbiət şairi kimi tanınan və hər yeni kitabı səbirsizliklə gözlənilən Musa Yaqub işləmək üçün şəhərə gedir. Və "Azərbaycan" jurnalına şöbə müdiri təyin olunur. Ancaq..."ayağı getsə də başı getməyən" şairin lirik qəhrəmanının ayrılıqdan doğan həzin düşüncələri şeirlərinə çox tez hopur. Onun "Bağışla məni" şeiri bu cəhətdən səciyyəvidir:

*Tutdun ətəyimdən, böyürtkən kolu,*
*Yox qala bilmərəm, bağışla məni*

"Uğurlu günədir niyyətim, yolum" deyən şair sanki bununla ətəyindən bərk-bərk yapışan o böyürtkən kolundan, şanına şeirlər qoşduğu yumruq boyda qar topasını zərif çiyinlərində qaldıran boynu bükük bənövşədən, göyərməsini ilahidən dönə-dönə arzuladığı o qara daşdan, hər şeydən, hər şeydən üzr diləyirdi.

Bütün qəlbi ilə torpağa, təbiətə bağlı olan şairin nigaran könlü şəhərə alışa bilmir. Musa Yaqubun bu yerdəyişməsini xoş qarşılamayan yazıçı Qulu Xəlilov söhbətlərinin birində demişdi: "Qorxuram Musanın şeirlərindən daha çiçək ətri yox, neft iyi gəlsin". Deyəsən şairin canında da bu qorxu var idi. Dörd il sonra doğulub boya-başa çatdığı yurda dönür və 20 ildən çox İsmayıllıda nəşr olunan qəzetin redaktoru olur. 1995-2000-ci illərdə Milli Məclisin deputatı kimi fəal ictimai iş aparır. Amma poeziya həmişə öndə gedir - bir fərqlə. Artıq Musa Yaqub poeziyasında cəmiyyət-təbiət müstəviliyi inkişaf edərək dərin fəlsəfi məna qazanır. "Nanə yarpağı", "Payızdan yaza yol varmı", "Puhumla söhbət" yenicə çap olunmuş "Bu dünyanın qara daşı göyərməz" kitablarında toplanan şeirlər dediyimizin aydın sübutudur. Bu gün Musa Yaqub yaradıcılığı qlobal genişliyə doğru irəliləyib. Əzəli Buynuzdan, İsmayıllıdan başlayan, Azərbaycanda bütövləşən bu genişliyə dünya dar gəlsə də Buynuz dar gəlmir. Şəhərə, şəhərin o geniş şadlıq saraylarına, teatr salonlarına "sığmayan" Musa Yaqub Buynuzun balaca bir düzünə "Dünyam" deyə bilir. Və o düzdə oxuyan meşənin, nəğmə deyən çayın, zümzüməsi tükənməyən bulağın, sükuta dalıb sözü şair oğluna verən bülbüllərin, torağayların qulağı dibində yaş keçirmək ona daha xoş gəlir. Axı bura Buynuzdur! Vətənin, sevginin başladığı ünvandır. Musa Yaqubun əzəli və əbədi sevgisinin qaynağı, ilham mənbəyi Buynuz.

*Bəlkə də borcundan çıxmadım Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın.*

**Lətifə ƏLİYEVA**

***R.S. "Mədəni-maarif"in dəyərli oxucularının diqqətinə şairin bir neçə şerini veririk.***